http://iqtisadiforum.blogspot.com/2020/09/vahid-mhrrmov-knd-tsrrufat.html

**3 Sentyabr 2020**

**Vahid Məhərrəmov: "Kənd təsərrüfatı yarmarkalarında olan qiymətlər bazarlara təsir etmir"**



Azərbaycanda bir neçə ildir ki, dövlət büdcəsinin vəsaiti hesabına dövlət müəssisə və təşkilatları tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada satın alınması həyata keçirilir. Bu iş dövlətə məxsus "Aqrar Tədarük və Təchizat" Açıq Səhmdar Cəmiyyətinə həvalə edilib.

Qeyd edək ki, "Aqrar Tədarük və Təchizat" ASC "Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC-nin (2016-cı il 11 apreldən) hüquqi varisidir.

"Aqrar Tədarük və Təchizat" ASC ölkədə kənd təsərrüfatı məhsullarının istehsalını və emalını stimullaşdırmaq, dövlət sifarişi ilə kənd təsərrüfatı və ərzaq məhsullarının satın alınmasının mərkəzləşdirilmiş qaydada təşkili ilə bağlı həyata keçirilən işlərin səmərəliliyini daha da artırmaq və sistemliliyini təmin etmək məqsədilə yaradılıb.

Bəs, bu qurumun fəaliyyətinin bazarda qiymətlərə, aqrar məhsulların istehsalına təsiri necə olub?

Aqrar sahə üzrə ekspert, "İqtisadi Forum" ekspert qrupunun üzvü Vahid Məhərrəmovun fikrincə, ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada həyata keçirilməsi səmərəli deyil. O qeyd etdi ki, qaydalara əsasən, ərzaq məhsullarının hər bir növü üzrə satınalma qiymətini İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla Kənd Təsərrüfatı Nazirliyi müəyyən edir.

Ekspert söylədi ki, dövlət büdcəsində 2017-ci ildə 343,4 milyon manat, 2018-ci ildə 299, 2 milyon manat, 2019-cu ildə 412,5 milyon manat ərzaq məhsullarının alınması və təminatı xərci üçün ayrılıb, 2020-ci ildə isə bu məqsədlə 414 milyon ayrılması nəzərdə tutulur: "Səhmdar cəmiyyət hazırladığı hesabatda qeyd edilir ki, 2019-cu ildə satınalan təşkilatların tələbatlarının öyrənilməsi məqsədilə tedaruk.az portalında elanlar yerləşdirilmiş və 163 məhsul üzrə 310 istehsalçı və satıcıdan təklif qəbul edilib. Həmin təkliflər üzrə müvafiq araşdırmalar aparıldıqdan sonra 177 istehsalçı və satıcı ilə müqavilə imzalanıb. Dövlət büdcəsindən maliyyələşən 867 müəssisə və təşkilatla satınalma müqaviləsi imzalanıb və müqaviləyə əsasən mərkəzi və yerli icra hakimiyyəti

orqanlarına məxsus 2014 təchizetmə nöqtəsinə ərzaq təchizatı həyata keçirilməyə başlanılıb.

2019-cu ildə mumilikdə, 57 629 ton məhsul tədarük olunduğu və il ərzində ümumilikdə 2014 təchizetmə nöqtəsinə 57 937 ton məhsul təchiz edildiyi bildirilir. Hesabatında 2019-cu il ərzində Bakı şəhəri üzrə yarmarkalar təşkil edildiyi qeyd edilir.

Cəmiyyət hesab edir ki, "yarmarkaların keçirilməsində əsas məqsəd bazara intervensiya etməklə süni qiymət artımının qarşısının alınması, kənd təsərrüfatı məhsulları istehsalçılarının bazara çıxışının asanlaşdırılması, əhalini keyfiyyətli və bazar qiymətləri ilə müqayisədə aşağı qiymətə kənd təsərrüfatı məhsulları ilə təmin etmək olub".

Cəmiyyətin hesabatında qeyd edilir ki, yarmarkalarda bir sıra məhsul qiymətləri digər bazarlarla müqayisədə 20-30% aşağı olub. Əslində isə Bakı şəhərində 15 ildən çoxdur ki, kənd təsərrüfatı məhsulları satışı yarmarkaları təşkil edilsə də, yarmarkalarda mövcud olan satış qiymətləri bazarlarda satılan məhsulun qiymətlərinə zərrə qədər də təsir etməyib".

V.Məhərrəmov hesab edir ki, dövlət büdcəsi hesabına ərzaq məhsullarının alınması sistemi təkmilləşdirilməlidir: "Ərzaq və kənd təsərrüfatı məhsullarının dövlət vəsaitləri hesabına satın alınmasının təşkilini İqtisadiyyat və Maliyyə nazirliklərinin həyata keçirməsi daha məqsədə uyğundur. "Ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası"nda dəyişiklik edilməsi məsləhətdir. Regionlarda dövlət müəssisə və təşkilatların dövlət büdcəsinin vəsaitləri hesabına ərzaq məhsullarını birbaşa istehsalçılardan əldə edə bilməsi üçün şərait yaradılmalıdır. Dövlət müəsisə və təşkilatlar tender yolu ilə kiçik və orta kəndli təsərrüfatlarını müsabiqələrə cəlb etməklə təlabatlarının bir hissəsini onların hesabına ödəməlidir. Belə olan halda, xeyli sayda fermerlər, kəndlilər bazar imkanı əldə edər və bu sahədə rərabət mühiti yaranar, dövlət satınalmalarına yönələn büdcə vəsaitlərindən səmərəli istifadə olunar.

Kənd təsərrüfatı məhsullarının qiymətlərində tez-tez baş verən kəskin dəyişikliyin aradan qaldırılması, fermerlərin təlabatdan artıq istehsal etdikləri məhsulun satın alınaraq saxlanması və ölkənin ərzaq təhlükəsizliyini daha güvənli edilməsi üçün ümumi təlabatın 20 faizi qədər ehtiyat fondun yaranması məqsədi ilə kənd təsərrüfatı məhsullarının istehsalçılardan satın alınmasını "Aqrar Tədarük və Təchizat" Açıq Səhmdar Cəmiyyətinə həvalə edilməsi məqsədəuyğundur".